Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi

# Vətən müharibəsindən sonra diaspor quruculuğunda mübahisəli mərhələ açılıb...

**44 günlük Vətən müharibəsindən sonra diaspor quruculuğu sahəsində yeni çağırışlar gündəmə gəldi. Əlbəttə, bu müharibədə qazanılan qələbə bütün sahələrə sirayət etdiyi kimi diasporun da həyatına öz təsirini göstərdi. Vətən müharibəsindən sonrakı dövrdə diaspor quruculuğunun və lobbiçilik institutunun canlandığı diqqətdən yayınmadı. Amma bütövlükdə diasporumuz və lobbi təşkilatlarımız daha güclü iradə ortaya qoymalıdır.**



44 günlük Vətən müharibəsindən sonra nəinki bölgədə, bütövlükdə dünyada Azərbaycan yeni siyasi reallıqlar ortaya qoydu, regionun lider dövləti kimi özünü bir daha təsdiqlədi.

Bu gün Azərbaycan dövləti diaspor quruculuğunu, onun güclənməsini, inkişafını əsas məsələlərdən biri kimi diqqətdə saxlayır. Aidiyyəti qurumlar bu sahəyə ciddi töhfələr verirlər. Əslində, yeni dövrdə Azərbaycan diasporu tamam yeni proqramlarla, yeni konsepsiyalarla yola çıxamalıdır ki, öz fəaliyyətini qüsursuz şəkildə, Azərbaycanın dövlət siyasətinə uyğun qura bilsin. Bu çox vacibdir. Düzdür, bütün dövrlərdə Azərbaycan diasporu dövlətimizin, xalqımızın yanında olub, həqiqətlərimizi, yeni formalaşan reallıqları təbliğ edib.

**"Bütün bu fəaliyyətlər həm də çatışmazlıq və boşluqların aradan qaldırılmasına xidmət etməlidir"**

Diaspor Fəaliyyətinə Jurnalistlərin Dəstəyi İctimai Birliyinin sədri Fuad Hüseynzadənin fikrincə, 44 günlük müharibədən sonra formalaşan yeni reallıqlar mütləq şəkildə nəzərə alınmalıdır. "Xaricdəki soydaşlarımız daha mütəşəkkil şəkildə informasiya müharibəsi aparmalı, təbliğat və təşviqatlarını gücləndirməlidir. Bütün bu fəaliyyətlər həm də çatışmazlıq və boşluqların aradan qaldırılmasına xidmət etməlidir. Məsələn, biz müşahidə edirik ki, xaricdə azərbaycanlı və azərbaycanpərəst əcnəbi ekspert azlığı var. Xüsusən, dünya mediasında sözümüzü deyən ekspertlər barmaqla sayılacaq qədərdir. Buna görə də xaricdə soydaşlarımızdan ibarət yeni nəsil jurnalist, politoloq, ekspert komandası yetişməlidir. Bu iş uzunmüddətli strategiya əsasında aparılmalıdır. Yəni bu gün görülən iş gələcək üçün hesablanmalıdır. Bu baxımdan, xaricdə böyüyən gənclərimizin də universitetlərdə müvafiq istiqamətlər üzrə ali təhsil almasına, yaşadıqları cəmiyyətin ictimai-siyasi həyatında fəal olmasına ciddi diqqət yönəldilməlidir. Belə olduqda, onlar ali məktəbi bitirdikdən sonra potensial jurnalist, politoloq olacaqlar. Gənclərimiz, eyni zamanda beyin mərkəzləri ilə işləyə və ya özləri belə bir mərkəz yaradıb həmrəy şəkildə fəaliyyət göstərə bilərlər. Bunun üçün xaricdə yaşadıqları cəmiyyətə inteqrasiya olunan, amma assimilyasiya olmayan gənclər ordusu yaradılmalıdır. Onlar Azərbaycanın xaricdə siması olaraq yaşadıqları ölkələrin media ulduzlarına çevrilməlidirlər"-deyə o bildirib.

**"Əvvəlki dövrdə mövcud olan bəzi problemlər hələ də qalmaqdadır"**

Vətən müharibəsindən sonra diaspor quruculuğunda inkişaf, durğunluq və geriləmə təzahürləri necə qiymətləndirilə bilər?

Tarix elmləri doktoru, professor Məhərrəm Zülfüqarlı "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycanın müzəffər Ordusunun qələbəsindən sonra bütün Azərbaycan xalqında ruh yüksəkliyi yarandığı kimi diasporda da dəyişikliklər var. "Yəni ərazi bütövlüyümüzün bərpası, Azərbaycan xalqının beynəlxalq aləmdə imicinin artması ilə bağlı hamımızda qürur, iftixar hissi artıb. Bu da diaspor təşkilatlarımızın öz işlərini yenidən qurması, daha fəal fəaliyyəti üçün münbit şərait yaratdı.

Əlbəttə ki, əvvəlki dövrdə mövcud olan bəzi problemlər hələ də qalmaqdadır. Lakin biri var Qərb dövlətlərinin dəstəyi ilə Ermənistanın işğalı, hücumu və Azərbaycan xalqını ruhdan salan əvvəlki dövrlərdə işləmək, biri də var qalib xalqın nümayəndəsi kimi iş görmək. Bu amil diaspor təşkilatlarının işini asanlaşdırır. Bu zaman məsuliyyət hissi daha da artmalıdır ki, formalizmdən uzaq olsunlar. Yəni tədbir xatirinə tədbir keçirmək yox, bilavasitə Azərbaycanın qələbələrinin dəstəklənməsi, qələbələrimizin daha çox olması fonunda işləri artırmalıdır. Bilirsiz ki, Azərbaycanın qələbəsindən sonra Qərb ölkələri, xüsusən də Fransa Azərbaycana qarşı təxribatları artırır. Bu sahədə Avropa İttifaqına daxil olan ölkələrdə Azərbaycan diasporunun fəaliyyəti daha da güclənməlidir. Məsələn, son günlər Almaniya prezidentinin Ermənistana səfəri zamanı təxribat xarakterli təsvirin yayılması baş verdi, sonra onlar üzr istədilər. Bunlar hamısı Azərbaycanın indiki dövrdə gücünü göstərir. Tutaq ki, 44 günlük müharibəyə qədər olsaydı, bəlkə də Almaniya heç bu addımı atmazdı. Yəni indi qalib ölkə ilə hesablaşırlar. Qalib xalqın və qalib dövlətin diasoru da buna uyğun fəaliyyət göstərməlidir. Əgər hansısa ölkədə buna uyğun fəaliyyət göstərə bilmirlərsə yerlərini daha gənc, daha perspektivli insanlara verməlidirlər. Bir məqamı da deyim, mən Avropada çox olmuşam. Qardaş Türkiyə diasporu Azərbaycan diasporuna həddindən çox köməklik göstərir. Bizim diasporun günü həm də qardaş Türkiyənin dəstəyi ilə həyata keçirilir. Bu sahədə də mən qardaş türk xalqının diasporuna uğurlar arzulamaqla yanaşı, həm də onların bu dəstəyi daha da gücləndirməsini arzu edərdim. Çünki Türkiyə güclü, oturuşmuş bir dövlətdir və Avropada çoxlu sayda türk var, aralarında vətəndaşlıq alanlar da az deyil. Bu əməkdaşlığı daha da gücləndirmək Azərbaycan diasporunun fəaliyyətini daha da gücləndirə bilər" - deyə M.Zülfüqarlı qeyd etdi.

***İradə SARIYEVA***

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.*